# MADDƏ MİQDARI, QAZ QANUNLARI VƏ ONLARA AİD ÇALIŞMALAR

**N.Ə. Əkbərov**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Bu məqalə maddə miqdarı – molun əsas mahiyyətinin, bəzi qaz qanunlarının, onlardan çıxan nəticələrin, qaz qarışığının orta molyar kütləsinin sadə və şagirdlərin asanlıqla başa düşə biləcəkləri tərzdə izahına həsr edilmişdir. Məqalədə həmçinin, bu anlayışlara aid bəzi çalışmaların həlli üsulları və şagirdlərin sərbəst işləmələri üçün iki varintda çalışmalar da verilmişdir ki, onların da həlli baxılan mövzular üzrə şagirdlərin aldıqları biliklərin daha da dərinləşməsinə köməklik edərdi.

Mol - maddə miqdarı haqqında təsəvvürlər orta məktəbin VII sinif kimya dərsliyində [1] və demək olar ki, ali məktəbə daxil olmaq istəyənlər üçün yazılmış bütün kimya vəsaitlərində, məsələn, [2-7] saylı ədəbiyyatlarda və s. şərh edilmişdir. Hər bir fənnin ilk anlayış və terminlərinin sadə və asan dildə ətraflı izahı oxucularda bu fənnə qarşı rəğbət hissi oyadaraq, onu daha mükəmməl surətdə öyrənməyə sövq edir. Bu məqalədə də kimyanın ilk anlayış və terminlərini müasir təsəvvürlər əsasında, daha sadə və anlaşıqlı şəkildə izah etməyə çalışmışıq. Ona görə də ümid edirik ki, kimya elmi ilə ilk tanışlığa başlayan məktəblilər üçün bu məqalə çox faydalı olacaq və onlarda kimya elminə böyük maraq doğuracaqdır.

**Maddə miqdarı. Mol. Molyar kütlə. Molyar həcm. Avoqadro qanunu.** Maddələr kəmiyyətcə:

a) kütlə - m (vahidi q)
b) həcm – v (vahidi *l*)
c) maddə miqdarı - ν (vahidi mol) ilə ifadə olunur.

**Mol** – maddənin miqdar vahidi olub, tərkibində 12 q $^{12}C$- izotopundakı atomların sayı qədər quruluş hissəcikləri (molekul, atom, ion, elektron və s.) saxlayan maddə miqdarıdır. Məlum olmuşdur ki, $^{12}C$- izotopunun 12 q-da $6,02 \cdot 10^{23}$ sayda (bu, Avoqadro ədədi adlanır - $N_A$) atom vardır. Deməli, mol - $6,02 \cdot 10^{23}$ sayda hissəcikləri olan maddə miqdarıdır. Hər hansı bir maddənin bir molunda məhz $6,02 \cdot 10^{23}$ sayda quruluş hissəcikləri olur. Məsələn, 1 mol suda olan su molekullarının, 1 mol dəmirdə olan dəmir atomlarının, 1 mol $Na^+$ ionunda olan natrium ionlarının sayı bərabər olub, $6,02 \cdot 10^{23}$ ədəddir.

**Molyar kütlə (M)** – bir mol maddənin qramla ifadə olunmuş кütləsidir (vahidi q/mol) və $M = \frac{m}{v}$ düsturu ilə hesablanır (burada m-maddənin qramla kütləsi, v isə mol ilə ifadə olunmuş maddə miqdarıdır). Molyar кütlə ədədi qiymətcə nisbi moleкul кütləsinə (mürəккəb və çoxatomlu bəsit maddələr üçün) və ya nisbi atom кütləsinə (biratomlu bəsit maddələr üçün) bərabər olur. Məsələn:

$Mr(CH_4)$ =16 a.k.v.; $M(CH_4)$ =16 q/mol

Ar(Si) = 28 a.k.v.; M(Si) = 28 q/mol

**Molyar həcm ($V_m$)** – bir molun həcmidir və adətən, qazlar üçün nəzərdə tutulur (vahidi mol/l):

$$V_m = \frac{V}{\upsilon}$$

Həcm, ümumiyyətlə, qazlara aid olub, onların reaksiya tənliklərindəki əmsalları ilə ifadə edilir. Bərk maddələr və mayelərin həcmləri qazların həcmləri ilə müqayisədə çox kiçikdir və nəzərə alınmır. Məsələn:

$$Fe_3O_4 + 4H_2 \rightarrow 3Fe + 4H_2O$$

reaksiyası həcmin dəyişməməsilə gedir, yəni 4 həcm hidrogendən 4 həcm su buxarı alınır, $Fe_3O_4$ və Fe bərk maddələr olduqları üçün onların həcmi nəzərə alınmır.

Başqa bir misal: $N_2 + 3H_2 \rightarrow 2NH_3$

Bu reaksiyada iştirak edən maddələrin həcm nisbətləri: $V(N_2)$: $V(H_2)$: $V(NH_3)$=1:3:2 kimidir və reaksiyası həcmin dəyişməsilə gedir, yəni 4 həcm başlanğıc maddələrdən (3 həcm hidrogendən və 1 həcm azotdan) 2 həcm son məhsul (ammonyak) alınır.

Müxtəlif qazların və qaz qarışıqlarının normal şəraitdə (n.ş.) – $0^0$C və $10^5$ Pa təzyiqdə molyar həcmləri bərabər olub, 22,4 l/mol-dur.

Beləliklə, hər hansı bir maddənin 1 molunda $6{,}02 \cdot 10^{23}$ sayda molekul olur, onun kütləsi molyar kütləyə, həcmi isə qazlar üçün 22,4 l-ə (mayelər və bərk cisimlər üçün həcmləri çox kiçik olduqları üçün nəzərə alınmır) bərabərdir. Məsələ həllində bu prinsiplərdən istifadə etməklə maddənin kütləsi (m), həcmi (V), mol miqdarı (ν), molekullarının sayı (N) və atomlarının sayı ($N_{atom}$) müəyyən münasibət qurmaq olur (yəni bu kəmiyyətlərdən biri məlum olarsa, digərlərini də asanlıqla hesablayıb tapmaq olur). Məsələn:

**Məsələ 1**. 2 Mol karbon qazının:

a) kütləsini
b) həcmini
c) molekulların sayını
d) oksigen atomların sayını
e) atomların ümumi sayını hesablayın. $M_r(CO_2)$=44

**Həlli.** Bu tip sadə məsələləri həll etmək üçün əvvəlcə, məsələnin şərti – verilən (v) və tapılması soruşulan (m, V, N, $N_{atom}$ və s.) qeyd olunmalıdır (bu halda tənasübün birinci həddi qurulur), kütlənin altında molyar kütlə, molun altında 1, həcmin altında 22,4 (n.ş.), sayın altında $6{,}02\cdot10^{23}$ yazılır və bununla da tənasübün 2-ci həddi yaranır:

a) 2 mol $CO_2$............ x q
1 mol ...................44q
x=88q

b) 2 mol $CO_2$............ x *l*
1 mol ...................22,4 *l*
x=44,8 *l*

c) 2 mol $CO_2$............ x molekul
1 mol ................... $6{,}02\cdot10^{23}$ molekul
$x=2\cdot 6{,}02\cdot10^{23}=12{,}04\cdot10^{23}=1{,}204\cdot10^{24}$

d) 2 mol $CO_2$............ x O atomu
1 mol ...................$2\cdot 6{,}02\cdot10^{23}$ O atomu

$x=2\cdot 2\cdot 6{,}02\cdot10^{23}=24{,}08\cdot10^{23}=2{,}408\cdot10^{24}$

e) 2 mol $CO_2$............ x atom
1 mol ................... $3\cdot 6{,}02\cdot10^{23}$ atom
$x=2\cdot 3\cdot 6{,}02\cdot10^{23}=36{,}12\cdot10^{23}=3{,}612\cdot10^{24}$

**Avoqadro qanunu** 1811-ci ildə italiya alimi Avoqadro tərəfindən kəşf edilib: Eyni şəraitdə müxtəlif qazların bərabər həcmlərində bərabər sayda molekullar var:

Əgər $\left.\begin{matrix} V_1 = V_2 \\ T_1 = T_2 \\ P_1 = P_2 \end{matrix}\right\}$ olarsa, $\mathbf{N_1 = N_2}$ olar.

Burada: $V_1$, $T_1$, $P_1$, $N_1$ – birinci, $V_2$, $T_2$, $P_2$, $N_2$ – isə ikinci qazın, uyğun olaraq, həcmi (V), temperaturu (T), təzyiqi (P) və molekullarının sayıdır (N). Məsələn, oksigen molekulunun ölçülərinin hidrogen molekulunun ölçülərindən böyük olmasına baxmayaraq, eyni bir şəraitdə 1 *l* hidrogen qazında olan molukulların sayı da 1 *l* oksigen qazında olan molukulların sayına bərabər olur.

Avoqadro qanunundan bir neçə nəticə çıxır:

1. Eyni şəraitdə müxtəlif qazların bərabər sayda molekulları bərabər həcm tutur:

Əgər $\left.\begin{array}{l} N_1 = N_2 \\ T_1 = T_2 \\ P_1 = P_2 \end{array}\right\}$ olarsa, $\mathbf{V_1 = V_2}$ olar.

2. Normal şəraitdə ($0^0$C temperatur və $10^5$ Paskal təzyiqdə) hər hansı bir qazın 1 molu eyni həcm tutur. Müəyyən edilmişdir ki, normal şəraitdə bütün qazların 1 molunun tutduğu həcm eyni olub, 22,4 *l*-ə bərabərdir. Bu həcm qazın molyar həcmi adlanır: $V_m$=22,4 *l*/mol.

$$V_M\,(qaz)_{n.ş.}=22{,}4\ l/mol$$

Məsələn, 2 q $H_2$ (1 mol), 32 q $O_2$ (1 mol), 28 q $N_2$ (1 mol), 44 q $CO_2$ (1 mol) və ümumiyyətlə, hər hansı bir qazın bir molu normal şəraitdə 22,4 litr həcm tutur.

Qazın molyar həcmi temperatur və təzyiqdən asılı olaraq dəyişir. Molyar həcmdən istifadə edərək, qazın kütləci (m) və ya mol miqdarı (n) məlum olarsa, onun həcmini (V) asanlıqla hesablamaq olar:

$$V = V_M \cdot n$$

$$V = V_M \cdot \frac{m}{M}$$

**Qazın sıxlığı və nisbi sıxlığı.** Fizika kursundan məlum olduğu kimi, sıxlıq – vahid həcmdə olan kütlədir. Verilmiş müəyyən bir şəraitdə hər hansı bir qazın sıxlığı sabit kəmiyyət olub, onun molyar kütləsinin molyar həcminə olan nisbətinə bərabərdir:

$$\rho = \frac{M}{V}$$

Normal şəraitdə isə ($0^oC$, $10^5P$):

$$\rho = \frac{M}{22{,}4}$$

Hansı qazın molyar kütləsi böyükdürsə, onun sıxlığı da böyük olur. Molyar kütləsi 29-dan böyük olan qazlar havadan ağır, 29-dan kiçik olan qazlar isə havadan yüngül qazlardır.

**Nisbi sıxlıq.** Bir qazın (və ya qaz qarışığının) digər qaza görə nisbi sıxlığı onların molyar kütləsinin nisbətinə bərabərdir:

$$D = \frac{M_1}{M_2}$$

Burada: $M_1$ – 1-ci qazın (və ya qaz qarışığının), $M_2$ isə 2-ci qazın molyar kütləsidir. Bu prinsipə görə bir qazın (və ya qaz qarışığının):

a) Hidrogenə görə nisbi sıxlığı:

$$D_{H2}=\frac{M}{2}$$

b) Havaya görə nisbi sıxlığı:

$$D_{hava}=\frac{M}{29}$$

c) Oksigenə görə nisbi sıxlığı:

$$D_{O2}=\frac{M}{32}$$

d) Heliuma görə nisbi sıxlığı:

$$D_{He}=\frac{M}{4}$$

e) Azota görə nisbi sıxlığı:

$$D_{N2}=\frac{M}{28}$$ və s. olar.

Bu düstürlardan istifadə edərək qazın bu və ya digər qaza görə nisbi sıxlığı verildikdə həmin qazın molyar kütləsini də hesablamaq olar.

Qaz qarıçığına molyar kütləsi onun orta molyar kütləsindən böyük olan qaz əlavə olunarsa, alınan yeni qaz qarışığının sıxlığı artar, kiçik olan qaz əlavə olunarsa, onun molyar kütləsi azalar, eyni olan qaz əlavə olarsa, sıxlıq dəyişməz. Məsələn, tərkibində 1mol $N_2$ və 1 mol CO olan qaz qarışığına $CO_2$ əlavə olunsa, alınan yeni qaz qarışığının sıxlığı əvvəlkindən böyük, $NH_3$ əlavə edilərtsə – kiçik, $C_2H_4$ əlavə olunsa, - dəyişməz.

**Kimyəvi reaksiyalarda qazların həcm nisbətləri.** Avoqadro qanunundan çıxan nəticəyə görə, qazların eyni bir şəraitdə həcmləri nisbəti onların mol nisbətlərinə (və ya molekulları nisbətinə) bərabərdir:

$$\frac{v1}{v1}=\frac{v2}{v2}$$

Kimyəvi reaksiya tənliklərindəki qaz halında olan maddələrin əmsallar nisbəti onların mol nisbətlərini ifadə etdiyinə görə həm də həcm nisbətlərini ifadə edər (bərk və maye maddələrin həcmi qazlarla müqayisədə çox kiçik olduğundan onların həcmi nəzərə alınmır və təxminən sıfra bərabər qəbul edilir). Məsələn:

$$N_2 + 3H_2 \rightarrow 2NH_3$$

Reaksiya tənliyində 1 həcm azot 3 həcm hidrogenlə reaksiyaya girir, nəticədə 2 həcm ammonyak əmələ gəlir. Yəni:

$V(N_2) : V(H_2) : V(NH_3) = 1:3:2$ kimidir.

Başqa misalda:

$$CO_2 + 2C \rightarrow 2CO$$

reaksiya tənliyinə görə $V(CO_2) : V(C) : V(CO) = 1:0:2$ kimi olacaq.

Bu prinsipdən istifadə edərək reaksiya tənlikləri üzrə hesablamalar da aparmaq olar.

**Məsələ 2.** 12 *l* hidrogen artıqlaması ilə götürülmüş azotla reaksiyaya girdikdə neçə l ammonyak alınar?

**Həlli.** Əvvəlcə reaksiya tənliyi yazılır və əmsallaşdırılır:

$$N_2 + 3H_2 \rightarrow 2NH_3$$

Sonra isə verilən və soruşulan maddələr qeyd olunaraq onlar arasında tənasüb qurulur:

$$\underline{N_2} + 3\underline{H_2} \rightarrow 2\ \underline{NH_3}$$

12 *l*..............x *l*

3..................2

x=8 *l*

**Məsələ 3.** 12 *l* hidrogen 6 *l* azotla reaksiyaya girdikdə neçə *l* ammonyak alınar?

**Həlli.** Əvvəlcə reaksiya tənliyi yazılır və əmsallaşdırılır:

$$N_2 + 3H_2 \rightarrow 2NH_3$$

Sonra isə verilən və soruşulan maddələr qeyd olunur.

$$\underline{N_2} + 3\underline{H_2} \rightarrow 2\ \underline{NH_3}$$

6 *l*    12 *l*    x *l*

Əgər reaksiyaya daxil olan qazların hər ikisinin həcmi verilibsə, ilk öncə onlardan hansının tamamilə reaksiyaya girdiyi, hansınınsa artıq qaldığı müəyyənləşdirilir və hesablama tam reaksiyaya girən maddəyə görə aparılır. Reaksiya tənliyindən görünür ki, azot və hidrogen 1:3 həcm nisbətində qarşılıqlı təsirdə olur. Yəni 12 *l* hidrogenlə ondan 3 dəfə az, 12:3=4 *l* azot tam reaksiyaya girməlidir. Məsələnin şərtində isə 6 *l* azot götürülüb. Deməli 6-4=2 *l* azot artıq qalır. Tam reaksiyaya girən maddə hidrogen olduğundan tənasüb də ona görə qurulur:

12 *l* $H_2$...........x *l* $NH_3$

3..................2

x=8

və ya hesablamanı 4 *l* azota görə də aparmaq olar:

4 *l* $N_2$...........x *l* $NH_3$

1..................2

x=8

Bəzən qazlara aid olan məsələlərdə onun həcmi normal şəraitdə yox, digər müəyyən bir şəraitdə verilir. Elə olan halda həmin müəyyən şəraiti normal şəraitə uyğunlaşdırmaq lazım gəlir (çünki 22,4 mol/l molyar həcm yalnız normal şərait üçündür). Bunun üçün fransız kimyaçısı Klapeyronun ümumiləşmiş qaz qanunlarını ifadə edən tənliyindən istifadə edilir:

$$\frac{P \cdot V}{T} = \frac{P_H \cdot V_H}{T_H}$$

Burada: P, V və T – müəyyən bir şəraitdəki, $P_H$ , $V_H$ və $T_H$ isə normal şəraitdəki, uyğun olaraq, təzyiq, həcm və mütləq temperaturdur.

Bu düsturdan istifadə etməklə hər bir müəyyən şəraitdəki həcmi normal şəraitə uyğunlaşdırmaq olar:

$$V_H = \frac{P \cdot V \cdot T_H}{P_H \cdot T}$$

**Məsələ 4.** $127^0$C (400 K) temperatur və 3 atm təzyiqdə bir qazın müəyyən kütləsi 1 *l* həcm tutursa, normal şəraitdə bu qaz hansı həcm tutar?

**Həlli:** Yuxarıdakı tənlikdən istifadə edərək $V_H$-ı hesablayaq:

$$V_H = \frac{3atm \cdot 1l \cdot 273K}{1atm \cdot 400K} \approx 2{,}05\, l$$

Qazın həcmi (V), təzyiqi (P), maddə miqdarı (υ) və mütləq temperaturu (T) arasındakı əlaqə ideal qazın hal tənliyi – Mendeleyev-Klapeyron tənliyi ilə ifadə olunur:

$$P \cdot V = n \cdot R \cdot T \text{ və ya } P \cdot V = \frac{m}{M} \cdot R \cdot T$$

Burada: m –qazın kütləsi, M – qazın molyar kütləsi, R – universal qaz sabitidir və onun qiyməti təzyiqin ifadə olunmasından (vahidindən) asılı olaraq müxtəlif cür olur: R=8,314 c/mol·K=0,082 *l*·atm/mol·K=62,4 *l*·mm c. süt./ mol·K

Çox vaxt praktikada iki və daha artıq qazın qarışığından da istifadə edilir və həmin qarışıqda qazların həcm payının tapılması lazım gəlir. Bu və ya digər qazın qazlar qarışığındakı həcm payı (φ) qazın öz həcminin ($V_{qaz}$) qazlar qarışığının ümumi həcminə ($V_{qarışıq}$) nisbətinə bərabərdir:

$$\varphi = \frac{Vqaz}{Vqarışıq} \text{ və ya}$$

$$\varphi = \frac{Vqaz}{Vqarışıq} \cdot 100\%$$

Məsələn, bu qayda ilə hesablanmışdır ki, havada oksigen qazının həcm payı təxminən 21 %-dir.

## Qaz qarışığında həcm və kütlə payının hesablanması. Qaz qarışığının orta molyar kütləsi

Qaz qarışığında komponentlərin həcm və kütlə payını hesablayıb tapmaq mümkündür.

Qaz qarışığında həcm payını hesablanmaq üçün qaz qarışığının tərkibinə daxil olan bu və ya digər qazın uyğun olaraq öz kütləsini qarışığın ümumi kütləsinə bölmək lazımdır (onun 100 misli kütlə payını faizlə ifadə edir):

$$\omega=\frac{m}{M\ \ddot{u}mumi}\cdot 100\%$$

**Məsələ 1.** 15 q Etandan, 11,2 l (n.ş.) etilendən və 2 mol asetilendən ibarət qaz qarışığında qarışığın tərkibinə daxil olan qazların kütlə payını hesablayın . $M_r(C_2H_6)=30$; $M_r(C_2H_4)=28$; $M_r(C_2H_2)=26$.

**Həlli.** Bu tip məsələləri həll etmək üçün yuxarıda qeyd edildiyi kimi, etanın kütləsini qaz qarışığının ümumi kütləsinə bölmək lazımdır:

$$\omega\ (C2H6)=\frac{m(C2H6)}{M\ \ddot{u}mumi}\cdot 100\%=\frac{15}{15+\frac{11,2}{22,4}.28+2.26}.100=1500/81==18,52\ \%$$

Bu qayda ilə digər komponentlərin də kütlə payı hesablanır:

$$\omega\ (C2H4)=\frac{m(C2H4)}{M\ \ddot{u}mumi}\cdot 100\%=\frac{\frac{11,2}{22,4}.28}{15+\frac{11,2}{22,4}.28+2.26}.100=1400/81==17,28\ \%$$

$$\omega\ (C2H2)=\frac{m(C2H2)}{M\ \ddot{u}mumi}\cdot 100\%=\frac{2.26}{15+\frac{11,2}{22,4}.28+2.26}.100=5200/81==64,20\ \%$$

Qaz qarışığının tərkibinə daxil olan qazların kütlə nisbətlərinin faizlə ifadə\ olunmuş qiymətlərinin cəmi 100%-bərabər olmalıdır. Doğrudan da bu məsələdə

$$\omega\ (C2H6)+\omega\ (C2H6)+\omega\ (C2H6)=18,52+17,28+64,20=100$$

Qaz qarışığı üçün orta molyar kütləsindən ($M_{orta}$) istifadə edilir. Qaz qarıçığının orta molyar kütləsi orta hesabla bir mol qaz qarışığının, yəni onun 22,4 litrinin (n.ş.) kütləsi olub, aşağıdakı düsturla hesablana bilər:

$$M_{orta}=\frac{m(\ddot{u}mumi)}{v(\ddot{u}mumi)}$$

**Məsələ 2.** 15 q Etandan, 11,2 l (n.ş.) etilendən və 2 mol asetilendən ibarət qaz qarışığının orta molyar kütləsini hesablayın . $M_r(C_2H_4)=28$; $M_r(C_2H_6)=30$; $M_r(C_2H_2)=26$.

**Həlli.** Bu tip məsələləri həll etmək üçün yuxarıda qeyd edildiyi kimi, əvvəlcə qaz qarışığının ümumi kütləsi və onun tərkibindəki maddələrin ümumi mol miqdarı tapılır, sonra isə onların nisbəti hesablanır:

$$M_{orta}=\frac{m(\ddot{u}mumi)}{v(\ddot{u}mumi)}=\frac{15+0,5.28+2.26}{0,5+0,5+2}=\frac{81}{3}=27$$

## İstifadə edilmiş ədəbiyyat:

1. Abbasov M., Abbasov V., Abışov N., Əliyev V. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Kimya fənni üzrə dərslik. Bakı, “Aspoliqraf”, 2016
2. Əliyeva R., Abbasov V., Məhərrəmov A., Abbasov M., Hacıyeva S., Abışov N., Əliyev V.,
Əliyev A. Kimya. Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, “Aspoliqraf”, 2015.
3. Lətifov İ., Mustafa Ş. Kimya. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı, “Bakı” nəşriyyatı, 2016
4.Мануйлов А. В., Родионов В.И. Основы химии. Интернет-учебник, основан в 2001 г. Последнее обновление 2017 г.
5.Еремин В.В., Кузьменко Н.Е., Лунин В.В., Дроздов А.А., Теренин В.И. Химия. 10 класс. Профильный уровень: учеб. для общеобразоват. учреждений. 2-е изд., М.: Дрофа, 2012
6. Рудзитис Г.Е., Фельдман Ф.Г. Неорганическая химия. Органическая химия. 9 класс учеб. для общеобразоват. учреждений. 13-е изд. М.: Просвещение, 2009
7. Кузьменко Н.Е., Еремин В.В., Попков В.А. Начала химии, Современный курс для поступающих в вузы. Т.1/ Кузьменко Н.Е. и др.-16-е изд., перераб. и доп.-М.:Экзамен, 2016.

Н.А.Акперов

**Количество вещества, законы газов и упражнения, посвященных этим понятиям**

## РЕЗЮМЕ

Эта статья посвящена объяснению основным понятиям количество вещества, некоторым законам газов, полученным выводам этих законов, средней молярной массы газовой смеси в простой и доступной форме. В статье также изложены способы решения некоторых упражнений, посвященных этим понятиям, для углубленного изучения материала.

N.E. Ekberov

**Amount of substance, laws of gases and exercises dedicated to these concepts**

## SUMMARY

This article provides the students with a simple explanation of the amount of matter, the concept of moles, some gas laws and their results, the means of calculating the average molar gas mixture mass.This article also outlines two ways to solve some of these concepts and provide students with an opportunity to work freely in their work; this will help them further deepen their knowledge of the issues covered.

**Açar sözlər:** Mol, maddə miqdarı, molyar kütlə, qaz qarışığı, orta molyar kütlə, molyar həcm, qazın həcmi, qazın kütləsi, qazın sıxlığı.

**Ключевые слова:** Моль, количество вещества, молярная масса, смесь газов, средняя молярная масса, объем газа, масса газа, плотность газа.

**Key words:** Mol, amount of matter, molar mass, gas mixture, medium molar mass, molar volume, volume of gas, gas mass, gas density.